Bir qrup insan eyni vaxtda ezamiyyətə yola düşdü. Bəziləri bir müddət sonra geri döndü, qalanları isə bir daha geri dönmədi... Geri dönməyənlər üçün ezamiyyətin müddəti fərqli zamanlarda bitdi: 1934, 1952, 1961, 1962, 1982. Ezamiyyətini ən sonda başa vuran Məhəmməd Məhərrəmov oldu - 1982-ci il.




# "Əbədi ezamiyyət"in hesabatı





Ona tapşırılan iş yoldaşlarınkından çox olmamışdı. Sadəcə, onun da ömür yolu başa çatmışdı. Əsas tapşırığı isə hamısı eyni vaxtda yerinə yetirmiş, Vətənin müstəqilliyinin beynəlxalq səviyyədə tanınmasına nail olmuşdular.



Şərəfli bir tarixi missiyanı başa vurub, yeni başlanğıcın ərəfəsində idilər. Qanunla Paris Sülh Konfransındakı Azərbaycan nümayəndə heyəti ləğv edilir, aprelin 1-dən Azərbaycan Respublikasının Fransa Respublikasında, Böyük Britaniyada, İsveçrə Respublikasında, İtaliyada, Şimali Amerika Birləşmiş Ştatlarında, Almaniyada, Polşada, Sovet Rusiyasında diplomatik missiyaları təsis edilirdi. Növbəti missiya başlamamış sona yetdi. Parlamentin 22 aprel tarixli qanunu kağız üstündə qaldı. Bu da dəqiq olmadı. Əslində, onlar rəsmi qərarı qeyri-rəsmi icra etməli oldular. Avropaya, Amerikaya sakin olaraq Azərbaycan dövlətinin səfirlərinə, səlahiyyətsiz, amma gerçək nümayəndələrinə çevrildilər. Səpələndikləri dünyada Azərbaycanın səsi, siması oldular. Dəmir pərdə arxasındakı dünyada Azərbaycan həqiqətlərinin carçılarına çevrildilər. Dünya Azərbaycanı onların təqdimatında, yazısında, çıxışında, davranışında tanıdı.



"Parisdə qalmağa məhkum olunmuşların" Azərbaycandakı mənəvi elçisi Ramiz Abutalıbov oldu. 1971-ci ildə rəsmi səfərə çıxdığı Paris qürbətdə qalmış eloğlularının qeyri-rəsmi axtarış ünvanı oldu. 40 ildən artıqdır ki, Azərbaycan mühacirlərinin sorağında olan Ramiz Abutalıbov çoxsaylı müsahibələrində, yazılarında görkəmli şəxsiyyətlərimizin həyat və fəaliyyətini işıqlandırmışdır. Parisə eyni amalla yola düşmüş insanların taleyini bir filmdə paylaşmaq ideyasını isə 2016-cı ilin əvvəlində gerçəkləşdirə bildi. Azərbaycanın dövlət müstəqilliyinin 1920-ci il yanvarın 11-də beynəlxalq səviyyədə tanınmasının 96 illiyinə bu film layiqli bir töhfə oldu. Heydər Əliyev Fondunun və Bakı Media Mərkəzinin təqdim etdiyi filmin baş prodüseri Arzu Əliyeva, prodüseri Orman Əliyevdir. Müsəllim Həsənovun ssenarisi əsasında ərsəyə gələn film bir əsrlik tarixi və mühiti zövqlə uzlaşdıran rejissorun məharətidir.

1973-cü il, 14 mart. İlk cəhd, ilk görüş. Həmsöhbətinə inamsızlıqdan başlayan səmimiyyət körpüsü Məhəmməd Məhərrəmovu Ramiz müəllim vasitəsilə vətənə qovuşdururdu. Filmin tamaşaçıya təqdim olunan ilk tarixi qəhrəmanı da heyətin uzunömürlü və son vəfat etmiş nümayəndəsi Məhəmməd Məhərrəmovdur.

İlk tanışlıqdan dərhal sonra tarixi xronikaya keçid uğurlu rejissor işi sayıla bilər. Tamaşaçı filmin mahiyyətini, qəhrəmanların fəaliyyətini dərk etmədən şəxsiyyətlərin fədakarlığını obyektiv dəyərləndirə bilməz. Bu məqsədlə tarixi mühit, proseslər haqqında ilkin bilgiyə diqqətin yönəldilməsi vacib şərtdir. Paris Sülh Konfransına yola düşməli olan nümayəndə heyəti ilə tanışlıq rəsmi sənədlərin mühüm məqamlarını qabartmaqla müşayiət olunur.

Filmin baş tarixi qəhrəmanı, təbii olaraq, nümayəndə heyətinin sədri olmuş Əlimərdan bəy Topçubaşovdur. Fransa Ali İctimai Tədqiqatlar Məktəbinin doktoru Georgi Mamulianın və professor Solmaz Rustəmova-Tohidinin fikirləri peşəkar tədqiqatçı kimi etimad doğurur. Filmin ssenarisi konkret prinsiplər üzərində qurulubdur: Paris konfransına yola düşmüş Azərbaycan elçiləri haqqında məqamı yetişdikcə yığcam bioqrafik məlumat vermək (hər şəxsiyyətin təqdimatı şeir misralarının səslənməsi ilə başlayır), tematik və xronoloji keçidləri uzlaşdırmaq, sənəd və materialları, məktubları olduğu kimi çatdırmaq.

Parisə yola düşmüş Azərbaycan nümayəndə heyətinin fəaliyyəti, üzvlərinin aktyor obrazları vasitəsilə sonadək izlənilir. Filmin ideya müəllifi Ramiz Abutalıbov həm də filmin aparıcı şərhçisi, əsərin yaxşı anlamda bələdçisidir, filmdə təqdim olunan xatirə əşyaları, şəkilləri, sənədləri haqqında müfəssəl məlumat sahibidir.

Paris Sülh Konfransındakı elçiləri Azərbaycanın siyasi mədəniyyətinin, milli birliyinin bariz təcəssümüdür. Tiflis şəhərində dünyaya gəlmiş Əlimərdan bəy Topçubaşov, Bakıda doğulan Məhəmmədhəsən Hacınski, Şuşa əsilli Əhməd bəy Ağayev, Ceyhun bəy Hacıbəyov, İrəvan torpağının yetişdirmələri Məhəmməd bəy Məhərrəmov, Əkbərağa Şeyxülislamov, Xırdalanda doğulmuş Miryaqub Mehdiyev və digərləri eyni amalla yola çıxmışdılar. Siyasi mənsubiyyətləri də fərqli idi: bitərəf, müsavatçı, sosialist, ittihadçı, hümmətçi.

Maddi məhrumiyyətin, təzadlı siyasi baxışların, düşmən təbliğatının, qürbət ellərin sındıra bilmədiyi fədakar azərbaycanlılar idi. Azərbaycanı dünyaya qovuşdurmağın ilk addımlarını atan şəxsiyyətlərimiz sayılır. Onlar haqqında hələ çox kitablar yazılacaq, çox filmlər çəkiləcək. "Əbədi ezamiyyət" isə öz dəyərini saxlayacaqdır. Azərbaycan, Türkiyə, Fransa marşrutu ilə gerçəkləşən missiyanın tarixi rəmzlərin müşayiəti ilə tarixi informasiyanın çatdırılmasına gözəl nümunədir. "Əbədi ezamiyyət" filminin müəllifləri kitablara, cildlərə sığmayan tarixi 59 dəqiqə 45 saniyəyə sığdıra biliblər. Azərbaycan ünvanlı şeirin məşhur misralarını hər birinin deyimində növbə ilə səsləndirərək yerindən, siyasi əqidəsindən, sosial zümrəsindən, maddi vəziyyətindən asılı olmayaraq Parisdəki tarixi elçilərimizin Vətən naminə fədakar xidmətləri ilə əbədiyyət qazandıqlarını bəyan edirlər.

"Əbədi ezamiyyət" filmi Azərbaycan tarixinə, Azərbaycan dövlətçiliyinə varislik nümayiş etdirir. Müstəqil Azərbaycanı görmək nəsib olmasa da, tarixi qəhrəmanlarının "Azərbaycan" adlı müstəqil dövləti qurduqlarını və məhz bu zəminə dayaqlanaraq xalqımızın XX əsrin sonunda dövlət istiqlaliyyətini bərpa etmək haqqının olduğunu əsaslandırırlar. Paris Sülh Konfransında müstəqilliyi de-fakto tanınmış Azərbaycan Cümhuriyyəti olmasaydı, Vətənimiz Sovetlər İttifaqında müttəfiq respublika statusu almayacaqdı, SSRİ-nin süqutundan sonra isə daha öncəki beynəlxalq statusunu bərpa edə bilməyəcəkdi. Bu fikir filmdə Şimali Qafqaz Dağlı Xalqları Respublikasının müqəddəratı ilə müqayisədə daha ibrətamiz ifadə olunubdur. Bu baxımdan "Əbədi ezamiyyət" filmi Paris konfransındakı nümayəndə heyətinin nümunəsində Azərbaycan Cümhuriyyətini quranlara, yaşadanlara, ona xidmət edənlərə bir minnətdarlıq duyğusu, ehtiram təzimidir. Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyevin Fransaya ilk səfərində "Paris elçilərimizin" məzarları qarşısında ehtiram təzimi də siyasi-mənəvi varisliyin təsdiqi idi.

Müstəqil Azərbaycan dövləti varisi olduğu cümhuriyyətin beynəlxalq mandatlı diplomatlarının məzarlarına sahib çıxdı, qəbirüstü bərpa işləri aparıldı, mühafizəsi qayğısına qalındı. "Qərib məzarlar" Azərbaycanın xaricdə ziyarət ünvanı, şərəf abidələri oldu. Bu gün Azərbaycan vətəndaşı, gənci xaricdə həmin məzarları ziyarət etməklə, tanıtmaqla tarixinə, dövlətçiliyinə bir daha sahib çıxmış olur.

Üçrəngli Azərbaycan bayrağının dalğalandığı müstəqil respublikamızın, paytaxt Bakının müasir görünüşü ilə müşayiət olunan son görüntülər "Əbədi ezamiyyət" filminin dünyaya və gəncliyimizə bir çağırışıdır: Azərbaycan dövləti vardır, olacaqdır, daha da qüdrətlənəcəkdir. Azərbaycan gəncliyi bu dövlətə daim sadiq və sahib olacaqdır.

***Firdovsiyyə ƏHMƏDOVA,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının müdiri, əməkdar müəllim***